# “Milli opera incilərimiz” layihəsi yenidən təqdim edilib

**Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı tərəfindən həyata keçirilən "Milli opera incilərimiz" layihəsi çərçivəsində teatrın opera truppası solistlərin milli operanın ən gözəl vokal əsərlərini ifa etdiyi daha bir konsert keçirib.**



Konsert Bakı Musiqi Akademiyasının Opera Studiyasının konsert zalında baş tutub. Proqrama teatrın simfonik orkestri və xorunun müşayiəti ilə Azərbaycan bəstəkarları Üzeyir bəy Hacıbəyli, Müslüm Maqomayev, Fikrət Əmirov, Niyazi, Şəfiqə Axundova, Ramiz Mustafayev və Firəngiz Əlizadənin şah əsərlərindən parçalar daxil edilib.

Konsertdə Xalq artisti Gülnaz İsmayılova, Əməkdar artistlər İnarə Babayeva, İlahə Əfəndiyeva, Cahangir Qurbanov və Səbinə Vahabzadə, solistlər Adil Axundov, Mahir Tağızadə, Rəvanə Əmiraslanlı, Xəyal Hüseynov, Səma Həmzəyeva, Aytac Şıxəlizadə, Günel Hacıyeva, Fəhmin Əhmədli, Aydan Quliyeva, Orxan Cəlilov iştirak ediblər.

Azərbaycan. - 2025.- 1 noyabr (№234).- S.15.